# KONSTİTUSİONAL DURUM
# VƏ FİZİOQNOMİKA HAQQINDA ANLAYIŞ

Xarici görkəminə görə şəxsin xasiyyətini, temperamentini, bacarıq və qabiliyyətini, nəhayət sağlamlığını təyin etmək marağı ta qədim zamanlardan bu günədək daim insanları düşündürmüş və onların maraq mənbəyindən birinə çevrilmişdir. Rəvayətə görə qədim Çin filosofları insanların sifətinə, onun cizgilərinə, mimiki reaksiyalarına çox fikir verər və bunun vasitəsilə insanların xasiyyətini, əhvali-ruhiyyəsini təyin etməyi bacararmışlar.

Öz əsərlərində fızioqnomika haqqında qiymətli fikirlər söyləmiş uzaq keçmişin mütəfəkkirləri Hippokratın, Aristotelin adlarını xüsusi qeyd etmək lazımdır. Aristotel hər bir şəxsin psixi vəziyyətini qiymətləndirmək üçün onun başının quruluşuna və sifətinin ifadəsinə diqqət yetirməyə üstünlük verirdi. O, iri burunlu adamları bəzi heyvanlarla (buğalarla) müqayisə edir və belə adamların xasiyyətində kobudluq elementlərini görürdü. Nazik baş tükü olan adamları isə dovşanlarla müqayisə edir və onların qorxaq təbiətli olmalarını qeyd edirdi. Əksinə, cod, yaxud tüklü adamları cəsarətli, qorxmaz hesab edir və onları şir, vəhşi qabanla müqayisə edirdi. Aristotelin təsiri altına düşən bəzi müşahidəçilər səhvlərdən xali deyildi. Məsələn, onlardan bəziləri hesab edirdi ki, əyriburun adamlar şahinə, sallaq qulağı olanlar isə eşşəyə (uzunqulağa) bənzəyirlər.

XX əsrin əvvəllərində Avropada kəllənin həcminə və formasına böyük əhəmiyyət verilirdi. Geniş alın, iri başı olanları ağıllı, əksinə, ensiz alın və kiçik başı olanları intellekti zəif kimi qələmə verirdilər. Lakin belə yanaşma bütün

hallarda özünü doğrultmurdu. Heyvanlar arasında iri başlı begemot ağılsız, xırda başlı delfin, ilan isə ağıllı və müdrik heyvan sayılır. Sonralar beynin qırışlarına əhəmiyyət verənlər tapıldı. Lakin bu, praktik cəhətdən heç də məqbul deyildi. Beyin qırışlarının sayını və dərinliyini yalnız şəxsin ölümündən sonra tədqiq etmək mümkündür. Belə tədqiqatlar göstərdi ki, intellektual inkişafda qırışların əhəmiyyəti ya yoxdur və ya çox cüzidir. Heyvanlar arasında beyin qırışları ən çox olan heyvanlardan biri qoyundur. Bu heyvanı ağıllı adlandırmaq heç cür mümkün deyil.

Fizioqnomistlərin uzun illər apardıqları tədqiqatlar heç də uğurlu sayıla bilməz. Doğrudur, onların verdiyi bir çox məlumatlar təcrübi cəhətcə kifayət qədər əhəmiyyətli sayıla bilər. Lakin bu məlumatların standartlarının, ölçü vahidinin olmaması subyektivizmə şərait yaradır. Demək, bir fizioqnomist konkret bir şəxsin burnunu, dodağını, qulağını bir cür görə bilər, başqa birisi tamamilə başqa cürə. Yenə də ümumi psixologiyada və psixiatriyada mövcud olan çətinliklərlə qarşılaşırıq və səhvlərə yol verməyimiz adi hala çevrilir.

Bu problemi hərtərəfli tədqiq edən tanınmış alman alimi, «Bədən quruluşu və xasiyyət» əsərinin müəllifi E.Kreçmer demişdir: «Bədən quruluşunun öyrənilməsi tibb elminin dəqiq bir hissəsi olmalıdır. Çünki o, təbabətin və psixiatriya klinikasının mərkəzi problemi olan konstitusiyanın tədqiq edilməsinin əsas açarıdır».

Bədən quruluşu haqqında və ən əsas kəllənin quruluşu haqqında dəqiq məlumat almaq və onu təhlil etmək üçün başın ölçülərini sirkul, xətkeş və digər vasitələrlə ölçməyi təklif edən Kreçmer belə tədqiqatların yüzlərlə, minlərlə xəstə və sağlam adamlar arasında aparılmasını təklif edirdi.

XX əsrin axırlarında Fransız neyromorfoloqu F.Qall (1758-1828) tərəfindən irəli sürülən və ədəbiyyatda Qall frenologiyası kimi tanınan konsepsiyaya görə, kəllənin quruluşu ilə psixi funksiyalar arasında bağlılıq mövcuddur. Qall sübut etməyə çalışırdı ki, kəllə qapağı üzərində olan qabarlara uyğun olaraq beynin ayrı-ayrı sahələri inkişaf edir və insanın psixi xüsusiyyətlərini əks etdirir.

Qallın təklif etdiyi üsulla kəllənin xarici səthini müayinə etməklə (əsasən, barmaqlarla əlləmək) o şəxsin cəsarətli, istedadlı, xəsis, qorxaq və i.a. kimi xüsusiyyətlərini təyin etmək mümkündür. Sonralar təcrübədə özünü doğrultmayan «Qall frenologiyası» nəzəriyyəsi tədricən unudulsa da, bir çox alimlər, o cümlədən Kreçmer öz tədqiqatlarında həm Qallın, həm Lombrozonun müşahidələrindən istifadə edərək özünün yeni konsepsiyasını yaratmağa çalışdı. Kreçmer uzun müddət apardığı tədqiqatları ümumiləşdirərək belə bir nəticəyə gəldi ki, psixiatr üçün pasiyentin bədən quruluşunda diqqəti cəlb edə bilən hər nə varsa hamısı bizim üçün qiymətlidir.

İndi isə məşhur italyan psixiatrı, cəmiyyət hüququ və kriminologiya sahəsində antropoloji (antropologiya — bədən quruluşunu öyrənən elm sahəsidir) istiqamətin banisi Çezare Lombrozonun (1835-1909) müşahidələri ilə tanış olaq. Alimin başlıca ideyası bu idi ki, cinayətkar şəxslər həyat prosesi nəticəsində deyil, anadangəlmə yaranırlar. Lombrozonun özünün və ardıcıllarının apardıqları müşahidələr nəticəsində müəyyən edilmişdir ki, gələcək cinayətkarlar cinayət etməzdən xeyli əvvəl bəzi əlamətləri ilə nəzəri cəlb edir. Əlbəttə, bir çox alimlər, o cümlədən kriminalistlər Lombrozonun bu konsepsiyasını qəbul etmirdi və vaxtaşırı onu tənqid edirdilər. Lakin buna baxmayaraq, Lombrozonun fikirləri geniş yayılırdı.

Onu demək kifayətdir ki, yalnız 1885- 1900-cü illər arasında Lombrozonun baxışlarını müzakirə etmək üçün beş Beynəlxalq konqres keçirilmişdir. Həmin illərdən nəşr edilməyə başlayan «Psixiatriya və cinayət antropologiyası arxivi» (İtaliya), «Cinayət hüququ» jurnalı (İsveçrə), «Cinayət antropologiyası arxivi» (Fransa) bu günədək öz əhəmiyyətini itirməmişdir.

Öz müşahidələri nəticəsində Lombrozo belə fikrə gəlmişdir ki, gələcək cinayətkarın xarici görünüşündə, xüsusən sifətində aşağıdakı əlamətlərdən birini qeyd etmək mümkündür: alnın ensiz olması, yastı burun, çənə tüklərinin seyrəkliyi. Onun fikrincə, kəllənin, burunun, qulağın quruluşu, baş tükünün rəngi, bədəndə tatuirovkaların (döydürmələrin) olması cinayətə meyllilik mənasında əsas tədqiqat obyekti olmalıdır. Müşahidəçi mütəxəssis bütün bu elementlərə diqqətlə yanaşmalıdır.

Bəzi Şərq ölkələrində, ilk növbədə Yaponiyada fizioqnomikanın nailiyyətlərindən bədii yaradıcılıqda, rəssamlıqda, teatr sahəsində geniş istifadə edilir. Bu ölkədə fizioqnomikaya həsr olunmuş kitablara maraq o qədər böyükdür ki, hətta onları heç bir nəşrlərlə müqayisə etmək mümkün deyil.

Sifətin öyrənilməsi yapon fizioqnomikasının əsasını təşkil edir. Üzün tam xarakteristikasını vermək üçün onlar insanın sifətini 3 sahəyə bölürlər:

1. Yuxarı sahə - alın nahiyəsini əhatə edir. Əsasən insanın həyat yolunu müəyyən edir. Alının dərisinin rəngi, düzgün quruluşlu olması həmin şəxsin həm ruhən, həm də bədəncə sağlam olmasını göstərir.

2. Orta sahə - qaşlardan burunun ucuna qədər olan nahiyəni əhatə edir və şəxsin 35-50 yaş arasında keçirdiyi həyat yolunu əks etdirir.

3. Aşağı sahə - üst dodaqdan çənənin qurtaracağına qədər sahəni əhatə edir və 51-77 yaş arasında o şəxsin həyat yolunu əks etdirir. Bu sahədə diqqəti cəlb edən qüsur yoxdursa, bu, o şəxsin həlim təbiətli, xoş xasiyyət olmasını göstərir.

Ümumiyyətlə, yaponlar belə hesab edir ki, insanın sifətini oxumaq geniş təcrübə və bilik tələb edir. Uşaq və gənclərin üzünün, xüsusən alın nahiyəsinin dərisinin hamar və şüa rəngində olması onların valideyn nəvazişi ilə tərbiyə olunduqlarını, fərəhli həyat sürdüklərini göstərir. Alında qeyri-təbii ləkələrin, xal və digər törəmələrin olması şəxsin əksinə, pis həyat sürməsini, valideyn və yaxınlarının nəvazişindən bəhrələnmədiyini göstərir. Burunun üstü - iki qaşın arasındakı sahə insanın keçdiyi həyat yolunun necə olmasını xarakterizə edir. Bu sahədə qırışların, ləkələrin olması, dərinin qeyri-təbii rəngi məşəqqətli, gərgin həyat yolundan xəbər verir. Eyni ifadələri burunun ucuna da aid etmək olar. Burunla üst dodaq arasında olan sahənin hamar, ləkəsiz, təbii rəngdə olması irsiyyətin qüsursuz olduğunu göstərir.

Üst və alt dodaqların tüksüz sahəsi (qadınların boya çəkdiyi sahə) insanların iradəsini əks etdirir. Dodaqların qapalı, gərgin görkəmi özünə inamı əks etdirir. Alt dodağın sallanması iradəsizlik əlaməti kimi qiymətləndirilir. Dodaqların birləşdiyi bucaqların istiqaməti aşağıdakıları ifadə edir. Bucaqlar aşağı baxarsa, bu ciddilik, intellektual fəaliyyətdən, təşkilati işdən zövq almaq kimi qiymətləndirilir. Bucaqlar yuxarı baxarsa, bu, şəxsin emosionallığını, yumordan, incəsənətdən zövq alan adam olmasını əks etdirir. Alt dodağın tünd rəngdə olması daxili enerjinin çoxluğu, onun zəif solğun və ya maviyə çalan rəngi isə bu enerjinin azlığından xəbər verir.

insanın alt çənəsi daha çox məlumatları əks etdirir. Alt çənənin dərisinin

rənginin tutqun olması, orada içə qatlanmış əyriliyin olması, şəxsin keçmişdə ağır əməklə məşğul olmasını göstərir. Çənənin sümük hissəsinin tutumlu və möhkəm olması iradəlilik, güclülük əlamətidir.

Sifətdə yerləşən digər üzvlərin də böyük informasiya daşıdığını qeyd etmək lazımdır. Uzun, eyni istiqamətli, bərabər inkişaf edən tüklərə malik olan qaş şəxsin ağıllı, təmkinli və xoşxasiyyət olmasını göstərir. Cod tüklərlə örtülmüş, müxtəlif istiqamətlərə baxan qeyri- təbii rəngli qaş tükləri həmin adamın əks xüsusiyyətlərə malik olmasını, ən başlıcası, xasiyyətinin mürəkkəb olmasını göstərir. Qaşlar önə doğru qabarmış vəziyyətdədirsə, bu hər işdə müvəffəqiyyətə can atmanı qeyd edir. Qaş tükləri aşağı sallanmış adamlar utancaq, çox vaxt öz mənafelərini müdafiə etməkdə çətinlik çəkən şəxslərdir. Qaş tüklərinin canlı, parlaq rəngi xoş əhvali-ruhiyyədən, əksinə, onların qeyri-təbii, solğun rəngi məyusluqdan xəbər verən əlamət sayılır. Həmişə özünə inam bəsləyən adamların qaşı gözlərdən aralı olur, əksinə, gözə yaxın qaş inamsızlıq əlamətidir.

Gözü qəlbin aynası adlandırırlar. Gözlər qədər insanın əqli qabiliyyətini, hissiyyatını, cəsarətini, nəhayət sağlamlığını aşkar edən üzv yoxdur. Gözlərin iri, bir qədər qabarıq görkəmi o şəxsin qərarlı, inamlı və qorxmaz olmasını göstərir. Kiçik, bir qədər çuxura düşmüş gözlər isə şəxsin təkəbbürlü, qapalı, bəzən aqressiv adam olmasını göstərir. Gözün rənginə də ciddi əhəmiyyət verilir. Qara, qəhvəyi və yaşıl gözlər şəxsin enerjili, yaradıcı olmasına, mavi rəng həssas, zərif, açıq qəhvəyi isə utancaq adam olmasına işarədir. Göz bəbəyi ətrafında yaranan tünd həlqə şəxsin depressiv hal keçirdiyini göstərir (öz müşahidələrimizdir). Gözlərin eyni horizontal xətt üzərində bərabər görkəmdə yerləşməsi şəxsin həlim xasiyyətli,

insanlara qarşı ədalətli olmasını göstərir. Qeyri-bərabər gözlər kişinin inamlı, müstəqil, qadının isə tərs, ədalətsiz adam olmasını göstərir.

Üst göz qapaqlarının (o cümlədən kirpiklərin) bir qədər aşağı enməsi yetkinlik, kamillik əlamətidir. Bu əlamət həddindən çox ifadə olunan kişilərin enerjisi tez tükənən adam olmalarını göstərir.

Göz qapaqlarının dərisinin qatı, xoşagəlməz rəngdə olması fizioloji funksiyaların zəifləməsini göstərir (məsələn, qəbizlik, babasil xəstəliyi). Alt göz qapaqlarının şişman olması qaynar həyat sürmə əlaməti kimi anlanır. Əgər göz qapaqları sallanmış vəziyyətdədirsə, bu, seksual həyatın patoloji xarakter almasını ifadə edir.

Hər iki göz qapaqları şişman görünürsə, bu, fiziki və emosional yorğunluq əlaməti kimi başa düşülür. Gözün kənar bucaqlarının qırışlarla örtülməsi ağıl və zəngin təcrübə, başqalarının psixologiyasına nüfuz etmək əlaməti hesab edilir.

Yapon fizioqnomistləri gözləri aşağıdakı tiplərə bölür:

a) iri, canlı, parlaq gözlər - əjdaha gözü; b) uzunsov, yuxarı istiqamətə əyilmiş gözlər - sfinks (zərif xasiyyət şəxs); c) iri, qırışlarla əhatə olunmuş qapaqları olan - şir (başçı); ç) dar, uzunsov, qapaqlarında bir neçə təbəqəli qırışları olan göz - fil (sakit təbiətli insanlar); d) girdə, sarıya çalan parıltısı olan - pələng; uzunsov, kiçik, qara-sarı rəng - qoyun; e) üçbucaq formalı kəsiyi olan gözlər - at; ə) çox iri (qüzehli qişa sahəsi) gözlər - canavar gözlər adlanır. Ümumiyyətlə, gözlərin və sifətin quruluşuna görə insanları müxtəlif heyvanlara bənzətmək mümkündür. Kimin hansı heyvana oxşaması o şəxsin xasiyyətində də əks olunur. Gözə görə insanları tiplərə bölmək yaşlı şəxslərə (40 yaşdan sonra) daha çox aid edilir. Ancaq bu yaşdan sonra

şəxsiyyət dəyişməz qalır.

Burun deşiklərinin iri olması şəxsin xasiyyətcə qüsurlu olmasını göstərən əlamət sayılır. Ümumiyyətlə, yaraşıqlı, ölçüləri düzgün burun sahibləri iradəli, cəsarətli, hissiyyatı zəngin adamlar kimi xarakterizə edilir. Uzun burun qeyri-standart xasiyyətli adamlara məxsusdur. Gödək burun optimizm, açıq qəlblilik əlamətidir. Sümüklü, uzun burun sərt xasiyyət, özündən razılıq kimi qiymətləndirilir. Belə burun qozbel formada olarsa, bu qaraqabaq, dəymədüşər adamlara aid edilir.

Yuxarı baxan burun deşikləri kobudluq, səbirsizlik, bəzən əxlaqsızlıq əlaməti hesab edilir. Burunun qırmızılığı, spirtli içkilərə meyllikdən xəbər verir.

Qadının diqqəti cəlb edən iri burnu olması gəncliyini pis keçirən, xoşbəxtliyə qovuşa bilməyən adamlara məxsus olur. Ağızın, o cümlədən dodaqların iri, geniş olması iradəlilik, cəsarət və müstəqillik əlaməti kimi qiymətləndirilir. Çox kiçik ağız - zəiflik əlaməti kimi anlanır. Üzdə olan qırışlar ağız bucağı ilə birləşərək - burun-ağız həlqəsi yaradırsa, bu, qəddarlıq, xəyanətkarlıq kimi başa düşülür. Bir tərəfə əyilmiş görünən ağız sahibləri inadkar adamlar olurlar. Üst dodağın alt dodağa nisbətən iri və önə çıxması cəsarətsizlik, alt dodağın irəli çıxması isə eqoizm kimi qiymətləndirilir.

Qədim Çin və Uzaq Şərq fizioqnomikasında qulaqları aşağıdakı hissələrə bölərək xarakterizə etmək qəbul edilmişdir:

*a)* qulağın xarici çevrəsinin kənarı;

*b)* orta çevrəsinin kənarı;

*c)* daxili çevrəsinin kənarı;

ç) qulaq sırğası.

Qulaqlar insanın uşaqlıq dövrü həyatını daha dəqiq əks etdirən bir üzvdür. İlk növbədə qulağın sifətə nə dərəcədə uyğunluğuna - hansı biçimdə olması, baş tükündən nə dərəcədə aralıda dayanması və s. fikir verilməlidir. Qulağın forması sifətə nə qədər çox yaraşırsa, insan bir o qədər xoşbəxt həyat keçirib və əksinə. Qulağın həddindən artıq iri olması, xoşa gəlməyən rəngi və kələ-kötürlüyü şəxsiyyət anomaliyasın- dan xəbər verir. Çox kiçik qulaqlar da müsbət qiymətləndirilmir. Məşəqqətli həyat sürməyə məhkum olunanların qulaqlarının kiçik olması fikri bu sahənin bir çox mütəxəssisləri tərəfindən müdafiə edilir.

Daha çox əhəmiyyət kəsb edən qulaqların *(əlalxüsus gözə nisbətən)* yuxarıda və ya aşağıda dayanmasıdır. Ölçünü qulağın başa birləşən yuxarı bucağından və qaş tükünün qulağa yaxın qurtaracağından aparmaq daha düzgündür. Qulaq bucağının qaşlardan hündürdə olması yüksək intellekt və iradəlilik əlaməti kimi qiymətləndirilir. Bərabər səviyyədə yerləşən qulaqlar orta intellekti, qulaqların qaşdan aşağıda yerləşməsi isə intellektin və iradənin aşağı səviyyədə olmasını göstərir. Bu testin düzgün olmasını təsdiq edən çoxlu dəlillər mövcuddur. Məsələn, A.Eynşteynin və iki dəfə Nobel mükafatı laureatı M.Nürinberqin qulaqları qaşa nisbətən 4 sm. yuxarıda yerləşib. Yaxud anadangəlmə kəskin ağıl zəifliyi olan uşaqların *(Daun xəstəliyi)* qulaqları qaşa nisbətən xeyli aşağıda yerləşir.

Qulaq sırğası həm sifətə, həm də qulağın özünə yaraşmalı, gözoxşayan harmoniya təşkil etməlidir. Uzun görünən sırğalıq laqeydlik, çox kiçik sırğalıq şübhə, dəymə-düşərlik əlaməti kimi qiymətləndirilir. Bu əlamət daha çox qadınlara aiddir. iri sırğalığı olan kişilər müdrik insanlar olurlar. Bir qədər irəli əyilmiş

sırğalıq səmimilik əlaməti, əksinə, arxaya əyilmiş olarsa, əsəbilik kimi qiymətləndirilir. Qulaq sırğalığı qadınların emosionallığını, ehtirasını əks etdirən bir nişanə kimi də əhəmiyyətə malikdir. Enli, gül rəngli, bir qədər uzun sırğalıq ehtirası güclü olan qadınlara və əksinə, qısa, nazik, birbaşa kəlləyə yapışmış sırğalıq ehtirası zəif qadınlara məxsus olur. Umumiyyətcə, qulağın açıq qırmızıya, gül rənginə *(çəhrayıya)* çalması sağlamlıq, emosionallıq, xoşbəxtlik əlaməti kimi qəbul edilir. Sarıya və ya mavi rəngə çalan *(bəzən bozumtul)* qulaqlar xəstəlikdən xəbər verir. Qulağın yuxarı hissəsinin tünd, xoşagəlməz rəngi gizli gedişli ciddi xəstəliklə əlaqələndirilir. Qulağın iç hissəsində ləkələrin, yaxud xalın olması sağlamlıq baxımından pis əlamət sayılır.

indi isə sifətin ümumi quruluşunu, ölçü və cizgilərini nəzərdən keçirək.

İnsanın üzünün (sifətinin) dili, yəni ifadə edə biləcəyi məlumatlar sakit vəziyyətdə deyil, hərəkətli olduğu halda, məsələn, danışarkən, gülərkən, sevinc və ya iztirab hissi keçirərkən və s. məzmun kəsb edir. Deməli, biz çalışmalıyıq ki, məhz bu vəziyyətlərdə mimikanı izləyək. Sakit vəziyyətdə də, hətta insanın fotoşəklinə baxmaqla da nə isə anlaya bilirik. Lakin bu çox cüzi məlumat olacaqdır. Müşahidə etdiyimiz şəxslə yaxından söhbət edən zaman çıxardığımız nəticə daha məqbul sayılır.

İlk növbədə sifətin ümumi quruluşuna fikir verilməlidir. Əsasən dörd sifət forması ayırd edilir:

1) Uzunsov sifət. Alının, yanaqların və çənənin ölçüləri sanki bərabər görünür. Bu əlamət kübar ailələrə mənsubiyyət əlaməti kimi qiymətləndirilir. Bu forma üzə malik olanlar adətən ağıllı, sakit təbiətli, hissiyyatları zəngin şəxslər

olurlar. Bəzi tədqiqatçılar belə sifətli adamları güclü təşkilatçı, sərkərdə, öz məqsədlərinə nail olmaq üçün hər şeyi edə bilən adamlar kimi xarakterizə edirlər. Məsələn, Suvorov, Ziqmund Freyd, Dostoyevski, Mikayıl Müşfiq, Həzi Aslanov sifətlərinin quruluşuna görə bu tip şəxslər olublar.

2) Üçbucaqvarı sifət. Alın və sifətin yuxarı hissəsi enli, aşağıya (çənəyə) doğru nazikləşən üzlü adamlar hissiyyatları zəngin, ədəbiyyatı, incəsənəti daha çox sevən olurlar. Bəzən yüksək istedad sahibləri bu formada sifətə malik olurlar. Belə şəxslər arasında çekistlərə *(hüquq- mühafizə orqanı işçilərinə),* sərt xasiyyəti ilə fərqlənənlərə də rast gəlmək mümkündür. Belə şəxslər heç vaxt sadəlövh olmurlar. Daha çox əsas məqsədləri uğrunda yorulmadan çalışan şəxslər olurlar. Rixard Zorge, Marşal Jukov, Fridrix Engelsi belə sifətə malik şəxslərə aid etmək olar.

3) Trapezvari forma. Sifət əvvəlki formaya oxşasa da, ondan çənənin çox ensiz olması ilə fərqlənir. Daha çox aktyorlar, yaradıcılıqla məşğul olan adamlar bu forma sifətə malik olurlar. Beləlləri həyatlarının mənasını mübarizədə deyil, yaradıcılıqda görürlər. Belə sifətli qadınlar olduqca nikbin, şən olub, həyatlarını mənalı keçirməyə can atırlar. Sifətin quruluşu bəzən trapezvari deyil, dördbucaq kimi olur. Bu, mərdlik, bəzən isə sərtlik və qəddarlıq kimi qiymətləndirilir. Napoleon, Stalin, Mussolini, Kutuzov belə sifətə malik olan adamlar olublar. Qadınların sifətinin dördkünc formada olması onların liderlik etməcəhdlərinə dəlalət edir.

4) Girdə sifət. Xoşxasiyyət, zərif qəlbli, humanist şəxslərə məxsus olan formadır. Belə şəxslər həlim xasiyyət olmalarına baxmayaraq eyni zamanda şəxsiyyətlərinə hörmət olunmasını tələb edənlərdir. Girdəsifət adamların gözlərinin parlaq, burunlarının relyefli olması onların aktivliyini, məqsədyönlü fəaliyyət bacarığının olmasını göstərir. Dövlət adamları *(C. Kennedi, II Yelizaveta),*sərkərdələr *(Napoleon)* arasında belələrinə tez-tez rast gəlinir.

Üzün mimiki hərəkətləri haqqında xüsusi danışmaq lazımdır. Təcrübəli

psixiatrlar öz müşahidələri ilə xəstəyə düzgün diaqnoz qoymaq üçün mimiki reaksiyalardan geniş istifadə edirlər. Məşhur rus psixiatrı və tədqiqatçısı L.M.Suxarebski özünün «Mimiki pozuntuların klinikası» *(1966)* əsərində yazır: «Sifətdə yaradılan iradəli görkəmin ana- tomik-fızioloji mexanizmi əsasən beyin qabığı, qabıqaltı düyünlərlə əlaqədar olub, mühiti sinir sistemi vasitəsilə əks etdirir».

Xəstəliklər zamanı mimiki pozuntuların klinikası kifayət qədər öyrənilib və bundan psixiatrlar, psixoloqlar çox geniş istifadə edirlər. Eşitmə hallüsinasiyaları olan xəstənin gözünü açaraq qulağını yana yönəldib diqqətlə nəyəsə qulaq asan vəziyyəti dərhal həkimin diqqətini cəlb edir. Yaxud, məzmunsuz, küt görkəmli sifət dərhal şəxsdə ağıl zəifliyinin *(oliqofreniya)* olmasını aşkarlayır. Bir çox xəstələri, məsələn, depressiya keçirən, maniakal vəziyyətdə olan xəstələri mimi- kalarına görə bir-birindən ayırmaq o qədər də çətinlik törətmir.

Bədən quruluşunun xasiyyətlə əlaqəsindən danışarkən yalnız baş və sifətlə kifayətlənmək olmaz. Orqanizmin digər hissələrinin, ilk növbədə əllərin böyük informasiya daşıdığını xüsusi qeyd etmək lazımdır. Əllərin təsvirinə onların xarici görkəmindən, həcmi və rəngindən başlamaq lazımdır.

Öz biçiminə görə bədənə yaraşan düzgün formalı barmaqları olan orta həcmli əllərin sahibi şəxsi keyfiyyətlərinə görə də xoşa gələn, mənfi əxlaqi keyfiyyətlərdən azad adamlardır. Əlin pəncə hissəsinin qısa olması xasiyyətin cəfəngliyinə, əksinə, uzun quruluşlu olması xırda- vatçılığa və yaxud da gözlənilməz hərəkətlərə meylliyə işarədir.

Pəncənin həddindən artıq iri görkəmi sahibinin fəndgir, fürsəti əldən

buraxmayan, yəni öz xeyri üçün hər şeyi mənimsəməyə meylli olmasını göstərir. Pəncə hissəsi uzun, amma barmaqları gödək və yoğun olan şəxslər tənbəl, yelbeyin, heç nəyin fərqinə varmayan olurlar. Barmaqları nə qədər yoğundursa, şəxs bir o qədər biganə və kütxa- siyyət olur. Pəncənin və barmaqların bir-birinə nisbətən biçimli, zərif və yaraşıqlı olması (bu daha çox qadınlara aiddir) şəxsin xoş xasiyyətini, estetik zövqünün zənginliyini göstərir. Barmaqların şəxsin bədən quruluşuna nisbətən, o cümlədən əlin pəncə hissəsindən xeyli kiçik olması xasiyyətin, ağlın qeyri-mətin olmasını göstərir. Belə şəxslər öz qərarlarında, başqalarına münasibətində hərdəmxəyal olurlar. Belələri ciddi işlərdə zəiflik göstərdikləri üçün onlara mühüm vəzifələr tapşırmaq olmaz. Bəzi adamlarda barmaqlar bir-birindən aralı, yöndəmsiz formada yerləşir. Onlar eqoist, sözbaz olmaqla, estetik zövqdən uzaq olurlar.

Barmaqları oynaq, arxaya, yana asanlıqla əyilə bilən şəxslər çevik, çoxbilmiş, öz xeyrini başqalarına nisbətən daha müvəffəqiyyətlə yerinə yetirə bilirlər. Barmaqların kökü bir-birindən aralı, uc hissəsi əksinə bir-birinə yaxında yerləşən adamlara evsizlər, dilənçilər, həyatda öz yerini tapa bilməyənlər arasında rast gəlinir.

Baş barmağın quruluşuna daha çox əhəmiyyət verilir. Xiromantlarm fikrincə, heç bir barmaq baş barmaq qədər zəngin informasiyaya malik deyil. Bu barmağın uzunluğu iradəlilik, qısalığı isə, əksinə, zəiflik kimi qiymətləndirilir. Barmağın enli olması ağıl zənginliyi, nazikliyi isə biclik, çeviklik əlamətidir. Baş barmağın yuxarı *(dırnağa yaxın)* oynağa qədər hissəsinin həcmi iradəliliyi, ikinci oynağa qədər hissənin həcmi isə əqli qabiliyyəti əks etdirir. ikinci oynaqla pəncədə yerləşən

üçüncü oynağın arasının diqqəti cəlb edən olması (uzunluğu, həcmi) sevgi-məhəbbət, yəni emosionallıq göstəricisidir. Bu barmağın relyefli olması diplomatik bacarığı, arxaya əyilə bilmək dərəcəsi çevikliyi (yəni hər bir çətinlikdən çıxış yolu tapmağa qadir olmağı), dırnağın qurtaracağına doğru ətli və çəhrayı rəngli olması emosionlallığı göstərir.

Baş barmağın necə dayanmasına da böyük əhəmiyyət verilir. Bu barmağın içə, göstərici barmağın altına doğru əyilmiş görünməsi gücsüzlük, zəiflik və iradəsizlik əlaməti kimi qiymətləndirilir. Körpə uşaqlarda, ölümünü gözləyən adamlarda baş barmağın belə görkəmini müşahidə etmək mümkündür.

Astroloqların dediyinə görə, hər bir barmaq bir planetin təsiri altındadır. Bu baxımdan baş barmaq məhəbbət simvolu Zöhrə *(Venera),* göstərici barmaq hakimiyyət simvolu Yupiter, orta barmaq - əsarət və tale simvolu Saturn, adsız barmaq - Allah vergisi və istedad simvolu Günəş, çeçələ barmaq - gəlirli fəaliyyət, ticarət simvolu Merkuri planetlərini əks etdirir. Barmaqlardan hər hansı birinin daha görkəmli olması və onun altında *(pəncədə)* yerləşən hündürlüyün nəzərə çarpma- sı həmin barmağın üstünlüyünü göstərən əlamət sayılır. Əgər hündürlük iki barmağın arasındadırsa, demək bu hər iki barmağa aid olan xüsusiyyəti əks etdirir.

Çeçələ barmaqda diqqəti cəlb edən bir əlaməti xüsusi qeyd etmək lazımdır. Bu barmağın adsız barmağa doğru qövs şəklində əyilməsi anadangəlmə ağıl zəifliyinin olmasını göstərir. Belə barmağı olan uşaqların dəqiq elmlərdən (riyaziyyat, fizika) xoşu gəlmir. Sonradan - xəstəlik nəticəsində yaranan ağıl zəifliyi zamanı bu barmağın forması dəyişmir.

Əlin və barmaqların quruluş xarakteristikası, yəni onları insanın xasiyyətini əks etdirməsini bütün barmaqlara aid təsvirlə yekunlaşdırmaq olar. Bu baxımdan barmaqlar əsasən iki tipə bölünür:

*1.* Kvadratabənzər barmaqlı (küt uclu) əl;

*2.* Tədricən nazikləşən (iti uclu) barmaqlı əl.

Birinci formaya malik əli olanlar işgüzar, fəallığı üstün tutan adamlar olurlar. ikinci formaya malik əli olanlar isə mənəvi aləmləri zəngin, daha emosional şəxslər hesab edilirlər. Təsadüfi deyil ki, əksər hallarda məşhur musiqiçilər, xanəndələr, rəssamlar və s. bu tip ələ malik adamlardır.